MİLLİYYƏT
ARAŞDIRMALAR
MƏRKƏZİ

Avqust 2020

# AZƏRBAYCANDA MİLLƏTÇİLİK TƏBLİĞATI:

## Nəzəriyyə və Reallıq



**Müəlliflər**

Tərlan Əliyev, Zakir Rzazadə

# Mündəricat


| | |
|---|---|
| Giriş | 3 |
| Nəzəriyyə | 4 |
| Metodologiya | 9 |
| Data | 14 |
| Təhlil | 20 |
| Nəticə | 29 |
| Ədəbiyyat siyahısı | 32 |
| Əlavə | 34 |

# Abstrakt

Araşdırma Azərbaycanda sosial şəbəkədə millətçilik təbliğatının konturlarını ortaya çıxarmağa çalışır. Təbliğ olunan millətçiliyin ədəbiyyatdakı nəzəriyyə və mübahisələr baxımından hansı nöqtədə dayandığı, etnik-kültürəl, yoxsa sivil millətçiliyin geniş yayıldığı, istifadə olunan diskurs və bunun əsasları tədqiqatın cavab verməyə çalışdığı suallar arasındadır. Bu suallara cavab vermək üçün sosial şəbəkədə fəaliyyət göstərən on iki səhifədən data yığılaraq başlıca mənbə kimi istifadə olundu və əldə olunan data ədəbiyyatdakı nəzəriyyə, həmçinin Azərbaycandakı millətçiliyin fəaliyyət və tarixi konteksti vasitəsilə analiz olundu. Nəticədə təbliğ olunan millətçiliyin etnik-kültürəl əsaslı olduğu, bununla birgə sivil millətçiliyin də əsasən tarixi və siyasi proseslərdən təsirləndiyi və istifadə olunan diskurs da həmin çərçivə daxilində formalaşdığı meydana çıxdı. Nəzəri əsaslandırmalara uymayan əlavə bir praktiki millətçilik kateqoriyası da müəyyən olunaraq analiz edildi.

**Açar sözlər:** millətçilik; sosial şəbəkə; media; təbliğat; Azərbaycan

# Giriş

Sosial şəbəkələr artıq müasir dövrümüzün böyük təsirə sahib reallıqlarından biridir. Sosial medianın cəmiyyətin, demək olar ki, hər sahəsinə qaçılmaz bir təsiri vardır və siyasi təbliğat da bu yan təsirlərdən sadəcə biridir. Azərbaycanda sosial medianın indiki dərəcədə aktiv istifadəsi haradasa son 5-10 ilin cərəyanıdır. Bu dövr ərzində fərqli siyasi maraq qrupları da öz ideoloji təbliğatını həm də sosial şəbəkələr üzərindən aparmağa başladı. Bu ideoloji qruplardan biri də millətçilər idi. Azərbaycanda millətçilik düşüncəsi müstəqillik dövründən sonra artan templə özünə tərəfdar yığmağı bacardı. Sosial şəbəkənin aktiv istifadəsi isə burada çox izləyicili səhifələrin yaranmasına yol açdı və bu da öz növbəsində həmin səhifələrin bəzilərinin birbaşa və ya dolayı yolla millətçilik təbliğatı etməsini daha da asanlaşdırdı. "Təbliğat az və ya çox olmağından fərqli olmayaraq digər insanların fikirlərini, mövqelərini və ya hərəkətlərini simvollarla (sözlər, jestlər, bayraqlar, heykəllər, musiqi, geyim, nişan, saç düzümü, qəpiklər və poçt ştampları üzərindəki dizaynlar və sair) sistematik şəkildə manipulyasiya etmək cəhdidir" (Smith 2016).

Lakin bu təbliğat heç də hər zaman nəzəriyyə ilə üst-üstə düşmür və çox zaman da əlavə və ya əskik fikirləri müdafiə edir. Bəzən bu fikirlər millətçilikdən daha çox militarist, avtoritar, faşist və ya sağ düşüncənin fərqli ekstremist versiyalarını təmsil edir. Nəticə etibarilə, bu fərqli fikirlərin toplusu Azərbaycan sosial mediasında millətçilik üçün ümumi bir portret yaradır. Bu portretin əsl nəzəriyyəyə necə uyduğu və ya hansı alt qola daha çox aid olduğunu tapmaq bizim yazının əsas məqsədidir. Bu araşdırma fərqli şəxslərin millətçiliyi necə qavradığından daha çox, sosial mediada millətçiliyin necə təbliğ olunduğuna fokuslanır. Bu təmsilolunmanı isə biz daha çox yüksək izləyiciyə sahib və özünü millətçi və ya milli səhifə adlandıran səhifələrin timsalında araşdırmağa çalışdıq. Bu səhifələrin fəaliyyətindən yığılan data əsasında biz Azərbaycanda Facebook sosial şəbəkəsində millətçiliyin əsasən hansı tərif və ya təriflərə uyğun şəkildə təbliğ olunduğunu, hansı əlavə dəyərlərin millətçiliklə paralel və ya millətçilik kimi təbliğ olunduğunu, millətçiliyin hansı xüsusiyyətlərinin kölgədə qaldığını, bunların səbəblərini və hansı xüsusiyyətlərə gələcək üçün daha çox vurğu edilməli olduğunu aydınlaşdırmağa çalışacağıq. Araşdırma zamanı yalnızca əlimizdə olan dataya və nəzəriyyəyə əsaslanaraq real bir portret yaratmağa çalışacağıq.

# Nəzəriyyə

Azərbaycanda sosial mediada təbliğ olunan millətçilik anlayışını və onun məzmununu araşdırmazdan öncə siyasi və sosioloji ədəbiyyatda olan ümumi tərif və izahlara nəzər yetirməkdə fayda var. Belə ki, ümumi nəzəri əsaslarla tanışlıq Azərbaycandakı millətçiliklə bağlı meyilləri və hekayə quruculuğunun xarakteristikasını daha aydın anlamağa yardımçı olacaqdır. Bu səhifələr tərəfindən önə çıxarılan hadisələr, xüsusilə vurğulanan mövzular, istifadə olunan simvolika və s. kimi məsələlərin nəzəri tərəflə nə qədər üst-üstə düşdüyünə, təqdim olunan millətçi mövqelərin hansı yanaşmaların izahına daha çox meyilli olduğuna və hansı yanaşmalara daha az önəm verildiyinə cavab tapmağa yardım edəcəkdir.

Ədəbiyyatda millətçilik anlayışı üzərində bir sıra mübahisələr vardır. Bu həm millətçiliyin özü, həm də millət anlayışının tərifi ilə bağlıdır. Ümumi formada millətçiliklər sivil-siyasi və etnik-kültürəl əsaslara uyğun olaraq qruplaşdırılır. Nəzəriyyədə millət və millətçiliyə olan yanaşmaları fundamental iddialara əsasən ümumi şəkildə qruplaşdırdıqda iki qrup ortaya çıxır: bu anlayışların müasir dövrün məhsulu olduğunu iddia edənlər (modernistlər) və milli bağların pre-modern kökləri olduğunu müdafiə edənlər (etno-simvolist, primordialist, perennial yanaşmalar). Pre-modern və modern dövr fərqləndirilməsi, əsasən, siyasi-iqtisadi sistemdə dəyişiklikləri özüylə gətirən 17-18-ci əsrlərdən öncəki və sonrakı dövrləri nəzərdə tutur. Sənaye inqilabı, müasir mənada istifadə olunan dövlət formalarının - millət-dövlətlərin meydana çıxması, kapitalist sistemin yayılması və s. kimi dəyişikliklər modern dövrü pre-modern dövrdən ayıran əsas elementlər hesab olunur. Azərbaycanda müasir mənada milli dövlətin digərlərinə nisbətən gec yarandığını və bunun millətləşmə prosesinə təsirini nəzərə alsaq, ədəbiyyatdakı hər bir yanaşmanın əsaslandırmaları və onların sosial mediadakı məzmunla müqayisəsi əhəmiyyət daşıyır.

Modernist yanaşmaya görə millət və millətçilik müasir dövrün məhsulu olub, əsasən, 18-19-cu əsrlərdən etibarən ortaya çıxmağa başlamışdır. Bu yanaşmanın nümayəndələrindən olan Ernest Gellnerə görə “millətçilik siyasi və milli vahidin harmoniyada olmasını tələb edən siyasi prinsipdir” (Gellner 1983). Digər modernistlər kimi o da millətlərin millətçiliklərin nəticəsi olub, onların pre-modern köklərinin olmadığını müdafiə edirdi. Millətçiliyin yayılmasında və millətin yaranmasında dövlətin ehtiyacları əsas rol oynayır: sənaye cəmiyyəti bir-birini başa düşən insan qrupu tələb edir, dövlət isə bunun təmini üçün titular dilin rəsmiləşdirilməsini və kültürün standarlaşdırılmasını, təhsilin, medianın bu dildə təminini irəli

sürür. Beləliklə, kültür və dövlətin sərhədlərinin eyniləşdirilməsi ilə qrupun həyatda qalması təmin edilir (Eyni yerdə). Digər bir modernist, Erik Hobsbaum da millətə millətçiliklərin nəticəsi kimi baxırdı. Onun fikrincə, millətçilik milli dövlət qurmağı özünə əsas məqsəd qoyan siyasi proqramdır (Hobsbawm 1990).

Bundan başqa, Maykl Mann, Çarlz Tilli kimi modernistlər də millətçiliyə dair dövlətin xüsusi rolunu qeyd edirdilər. Maykl Manna görə milli birliyin və millətçiliyin formalaşmasında müharibələrin xüsusi rolu olmuşdur (1993). Belə ki, müharibələr həm müəyyən zamanda ümumi düşmənə qarşı birləşmə səbəbi yaradaraq, həm də keçmiş dövrlərdəki xatirələr: zəfər və məğlubiyyətlər baxımından müəyyən qruplar arasında bağların meydana gəlməsinə təsir etmişdir. Müharibələrin təsiri ilə 19-cu əsr boyunca militarizm və milli bağlılığın birləşərək meydana gətirdiyi, Mannın da "dövlətçi millətçilik" adlandırdığı millətçilik növü nisbətən geniş yayılmışdı (Eyni yerdə). Eyni şəkildə, Tilli də müasir milli dövlət və bürokratik mexanizmlərin yaranmasının millət quruculuğuna təsirindən bəhs edir. Onun fikrincə, bu institutlar millətçiliyin vasitəsilə regional və yerli bağları zəiflədərək milli həmrəyliyin yaranmasında rol oynamışdır (Tilly 1990). Mann kimi, Tilliyə görə də milli dövlətin yaranmasında rol oynayan müharibələr millət və millətçilik üçün də dolayı yolla təsirli olmuşdu.

İndiyədək bəhs olunanlardan əlavə olaraq millətçilikdə etnik və kültürəl elementlərin təyinediciliyində israrlı olan digər bir qrup mövcuddur. Primordial yanaşma milli kimliyi pre-modern dövrlərdən gələn dil, din, ərazi, qan bağı kimi sosio-kültürəl elementlərlə təyin edir. Pier van der Berge, Qrozbi kimi alimlər bu yanaşmanın əsas davamçılarındandır (Smith 1998). Umut Özkırımlıya görə primordializm milliyyətin "nitq, ruh, baxış və yaxud iybilmə qədər insanların təbii parçası və onun qədim zamanlardan mövcud olduğunu" iddia edən yanaşmadır (2010). Armstronq, Hatçinson kimi nümayəndələri olan digər yanaşmada – etnosimvolizm – millət və millətçiliklər üçün mif, simvol, dəyər və hekayələrin rolu önə çəkilir (Eyni yerdə). Əsas nümayəndəsi Antoni Smit olan bu axımda başlıca iddia millətlərin pre-modern bağlarının olması və bunların millətçiliklərdəki rolunun əhəmiyyətindən ibarətdir. Etno-simvolizm millətin yalnız sivil-siyasi anlayış olduğu fikrini qəbul etmir. Smitə görə millət "bütün üzvləri üçün tarixi ərazini, ortaq mif və xatirələri, kütləvi, ictimai kültürü, vahid iqtisadiyyat və insan hüquq və

azadlıqlarını paylaşan insan topluluğu"nu ifadə edir (1999). Millətçilik isə "bəzi üzvlərinin hazırki və ya potensial "millət"i yaratdığını nəzərdə tutan insan topluluğunun müstəqilliyi, vahidliyi və kimliyinin əldə edilməsi və saxlanılması üçün aparılan ideoloji hərəkatıdır" (Eyni yerdə). Smitin fikrincə, millətçilik yalnızca bölüşülən hiss, oyanıqlıq deyil, həm də "ideologiya və millətin simvolizmindən ilhamlanan aktiv hərəkatdır" (2009). Burada müasir dövrdə sivil olaraq adlandırılan millətlərin belə xüsusi "etnik özəyə" sahib olduğu iddiası dayanır. Belə ki, bugünkü sivil millət və millətçiliklərin formalaşmasında da pre-modern etnik və kültürəl elementlər özünü göstərir. Bu yanaşmaya görə müasir millətlər müasirlik qarşısında özlərinin etno-tarixlərinin simvol, mif, hekayə, dəyər və adət-ənənələrini yenidən-kəşf və yenidən-şərh edirlər (Eyni yerdə).

Ümumiləşdirsək, yanaşmalar arasındakı fundamental fərqləri belə təqdim edə bilərik: modernistlər millətə siyasi icma kimi baxdığı halda rəqib yanaşma kültürəl icma olaraq baxır; modernistlər millət və millətçiliyin modern anlayışlar olduğunu düşünürsə, digərləri onların daha qədim olduğunu düşünür; modernistlər millətin millətçilər - elita - tərəfindən yuxarıdan-aşağı proyektlə qurulduğunu düşünsələr də, primordialist və etnosimvolist yanaşma bunun əksini iddia edərək kütləvi/populyar əsasları müdafiə edirlər; modernistlər millət və millətçiliyin yayılmasında müasir kommunikasiyanın rolunu müdafiə edərkən qarşı tərəf qədim köklər faktorunu daha əhəmiyyətli hesab edir.

Yuxarıda sadalanan modernist və primordialist/etnosimvolik yanaşmalara müvafiq olaraq millət və millətçiliklər üçün sivil-siyasi və etnik-kültürəl təsnifatı geniş yayılmışdır. Hans Kohnun irəli sürdüyü bu yanaşmada sivil-Qərb milli kimliyi və etnik-Şərq kimliyi ayrılır (1944). Bu qruplaşdırmaya bir sıra tənqidlər gətirilmişdir. Taras Kuzio sivil-etnik bölgüsünün tarixi reallığa uyğun olmadığını və hər milli kimlikdə həm sivil, həm də etnik elementlər olduğunu deyərək bu təsnifatı tənqid etmişdir (2002). Onun fikrincə, millət anlayışının sivilləşməsi onun keçdiyi tarixi inkişafdan və demokratik konsolidasiyadan asılı olur. Antoni Smit də hər millətin müəyyən etnik özəyinin olduğunu deyərək kəskin bölgüylə razılaşmamış, ancaq yenə də bu bölgünün müəyyən ölçüdə yararlı və doğru olduğunu bildirmişdi (1991). Sivil və etnik millətçiliklərin qarşılıqlı inklüziv olub olmaması ilə də bağlı fikir ayrılıqları mövcuddur. Bu mövzuda araşdırmalar olsa da, üzvlərin hansı, etnik yoxsa sivil əsaslara üstünlük verdiyi məsələsində razılaşma mövcud deyil (Janmaat 2006).

Bəzi ədəbiyyatlarda isə etnik millət anlayışının özünün çox ümumi olduğu qeyd olunaraq onun etnik və kültürəl variantlara bölünməsi təklif olunur (Kymlicka 1999).

Biz isə araşdırma məqsədlərinə uyğun olaraq sivil və etnik (etnik və kültürəl variantların elementlərini eyni kateqoriyada dəyərləndiriləcək) millətçilik bölgüsündən istifadə edəcəyik. Ümumi olaraq, sivil millətçilik anlayışında yer aldığı dövlət, dövlətin siyasi institutları, ərazi, vətəndaşlıq, siyasi ideologiya, demokratik vəziyyət, milli ordu, xarici iqtisadi-siyasi uğur məsələləri və onlara bağlılıq yer alır. Bu daha çox modernist yanaşmanın millət və millətçilik üçün verdiyi izahlara uyğun gəlir. Etnik-kültürəl millətçilikdə isə dil, tarix, etnik köklər, adət-ənənələr, ədəbiyyat və s. kimi mövzular və onların mühafizəsi, irəli çəkilməsi öz yerini tutur. Burada da göründüyü kimi millətə primordial/etnosimvolist baxış özünü göstərir (Janmaat 2006; Shulman 2002).

Bu araşdırmanın nəzəri dizaynı olaraq aşağıdakı vizual ümumi çərçivəni təsvir edir. Azərbaycanda mövcud olan millətçi ideologiyanın çərçivələri həm nəzəri təriflərə uyğun olan, həm də təriflərdə ümumiləşdirilməyən komponentlərdən ibarətdir, bu səbəbdən qeyd olunan iki qol - “praktik əlavələr” və “nəzəriyyə” ölkədəki ümumi ideoloji çərçivəni - “Azərbaycanda millətçilik” - formalaşdırır. Bu çərçivənin sosial şəbəkədə əks olunan hissəsi isə - “sosial şəbəkədə millətçilik” - ümumi məzmundan istiqamətlənən vektorla təsvir olunub. Ümumi ideoloji çərçivədə olduğu düşünülən, lakin sosial şəbəkələrdə əks olunmayan mövzular isə “sosial şəbəkədə görünməyən” millətçilik adı altında qruplaşdırılıb. Sosial şəbəkədə görünməyən millətçilik məfhumu burada yalnızca nəzəri olaraq nəzərdə tutulub və belə bir ayrılmanın olması tamamilə hipotetikdir. Lakin ümumi olaraq ölkədə sosial şəbəkədə təbliğ edilməyən, ancaq nəzəri və praktiki əlavələrlə formalaşmış oflayn bir millətçiliyin də var olmaq ehtimalı var. Bu səbəbdəndir ki, bu qrupu da ümumi çərçivəyə əlavə etməyi uyğun gördük. Ancaq araşdırmanın əsas mövzusu nəzəriyyə və praktik əlavələrin Azərbaycanda yaratdığı millətçiliyin sosial şəbəkədə təbliğ olunan versiyasıdır. Hansı nəzəriyyələrin və nəzəriyyəyə daxil olmayan praktik əlavələrin işləndiyini taparaq, son nəticədə, sosial şəbəkədə təbliğ olunan millətçiliyin ümumi təsvirini ortaya qoya biləcəyik.


Praktik əlavələr
Nəzəriyyə
Azərbaycanda millətçilik
Sosial şəbəkədə görünməyən millətçilik
Sosial şəbəkədə millətçilik

# Metodologiya

Bu araşdırmanın məqsədlərinə uyğun olaraq biz sosial mediadan datanı əldə etmək üçün kontent analizindən istifadə edəcəyik. "Kontent analizi yazılı sənədlərdən, audio və video yazılardan və medianın digər formalarından sistematik, kəmiyyət və izahedici informasiya əldə etmək üçün istifadə edilən araşdırma prosedurudur" (Vonk və digərləri 2007, 106). Bu metodla biz sosial mediada paylaşılmış kontenti araşdırmanın məqsədinə uyğun olaraq öncədən təyin və izah edilmiş kodlama vərəqinə əsasən toplayacaq və kodlayacağıq. Bu kodlama öncədən seçilmiş mənbələrin öncədən seçilmiş zaman aralığındakı postları əsasında aparılacaqdır. İlk öncə bütün prosesə: mənbələrin necə seçilməsinə, kodlama vərəqinin necə qurulmasına, kodlamanın hansı əsaslarla aparılmasına və zaman aralığının necə seçilməsinə daha ətraflı nəzər salaq.

Araşdırma mövzusu sosial şəbəkədə olan millətçiliklə əlaqədar paylaşımların nəzəriyyəyə nə dərəcədə uyğun olduğunu və nəzəriyyəyə uymayan hansı əlavələrin edildiyi ilə bağlı olduğu üçün biz ilk öncə sosial şəbəkədəki mənbələrimizi təyin etməliyik. Bu mənbələr Facebook şəbəkəsində aktiv şəkildə fəaliyyət göstərən, müəyyən bəyənmə sayına və dolayısıyla müəyyən sayda auditoriyaya çıxışı olan, özünü millətçi, milli görüşlü adlandıran şəxslər tərəfindən idarə edilən və ya paylaşımlarında bu mövzulara böyük yer verən səhifələrdən seçiləcəkdir. Seçim kriteriyalarını daha konkretləşdirmək üçün bəyənmə sayı 4.000-dən çox olan və 2019-cu il də daxil olmaqla indiyə qədər fəaliyyət göstərmiş səhifələr arasından bəziləri seçilmişdir. Ümumi seçilən 12 səhifədən 8-i millətçiliklə bağlı fərqli tərəflərə daha çox vurğu edən milli səhifələr, 4-ü isə daha çox xəbər temalı paylaşımlar edən milli səhifələrdən seçilmişdir. Bütün seçilmiş səhifələrin fəaliyyət müddətini araşdırmaq zaman baxımından mümkün olmadığından biz 2019-cu ili milli temalı səhifələr üçün, 2020-ci ilin ilk 6 ayını isə xəbər temalı səhifələr üçün nümunə zaman aralığı olaraq götürmüşük və bu müddət ərzində paylaşılmış bütün postları kodlayacağıq.

Kodlama üçün kodlama vərəqindən istifadə ediləcəkdir və bu kodlama vərəqi nəzəri hissədə danışılanlar əsasında formalaşdırılacaqdır. İlkin olaraq əsas kateqoriyalar nəzəri millətçilik ilə əlaqəli (bundan sonra Mnəzəri kodlu) və nəzəri millətçilik ilə əlaqəli olmayan (bundan sonra Mpraktiki kodlu) kateqoriyaları olacaqdır və bu Mnəzəri kateqoriyası öz daxilində alt kateqoriyalara bölünəcəkdir. Burada millətçilik ilə əlaqəli

olmayan digər postlarla bağlı kodlama aparılmayacaqdır. Bunlara sadəcə fakt kimi paylaşılan, heç bir rəy bildirilməyən xəbərlər daxildir. Nəzəri millətçilik ilə əlaqəli olan postların kateqoriyaları öz daxillərində nəzəri hissədə də danışıldığı kimi etnik/kültürəl millətçi (bundan sonra ekM kodlu) və sivil millətçi (bundan sonra sM kodlu) alt kateqoriyalarına bölünür və onlar da hər biri özlərinin alt kateqoriyalarını yaradır. Nəzəri millətçilik ilə əlaqəli olmayan postlar isə öz daxilində alt kateqoriyalara bölünmür və biz bu sxemi əldə edirik. Bölünməmənin səbəbi bizim nəzəriyyəyə aid olmayan əlavələrin nələr olduqlarını tam bilməməyimiz və araşdırma başlamadan təxmin yürüdərək araşdırmanın obyektivliyini şübhə altına atmamaq üçündür. Bu kodlamada, əsas kateqoriyalardan birinə daxil olan post artıq digər əsas kateqoriyaya daxil edilə bilməz. Eyni qayda ilə alt kateqoriyalardan birinə daxil edilən post artıq digər kateqoriyaya daxil edilə bilməz. Burada sıralama əsas götürüləcəkdir və sıralamada yuxarıda olan kateqoriya daha əsas götürüləcəkdir. Digər postlar kateqoriyasına nəzəri və ya praktiki olaraq millətçiliyə aid olmayan postlar daxildir ki, bunları da araşdırmaya təsirsiz olduqları üçün kodlamadan kənarda saxlayacağıq.



ekM və sM kodlu alt kateqoriyalar özləri də digər mərhələdə bir daha alt kateqoriyalara bölünür və əsas kodlama bu kateqoriyalar əsasında aparılır. Bu alt kateqoriyalar isə öz növbəsində etnik və sivil millətçiliyin nəzəri bölmədə qeyd edilmiş tərifləri əsasında formalaşacaqdır. Bu kateqoriyalaşma bizə sosial şəbəkədə daha çox etnik yoxsa sivil millətçiliyin daha çox təbliğ olunduğunu, onların hansı kompenentlərinə daha çox üstünlük verildiyini və hansı komponentlərin kənarda qaldığını görməyə imkan yaradacaq. Eyni zamanda, nəzəriyyədə daxil edilməyən, tərifə aid olmayan kateqoriyalar isə bizə sosial şəbəkədə millətçilik adı altında təbliğ edilərək geniş yayılan fikirləri tapmağa kömək edəcək, əlbəttə ki, əgər belə fikirlər varsa. Əsas alt kateqoriyaları təyin etmək üçün Janmaatın sorğuda istifadə etdiyi siyasi və kültürəl kateqoriyalardan yararlanacağıq (2006, 9-14). Bu kateqoriyalar nəzəriyyə əsasında bir daha gözdən keçirilib Azərbaycan reallığına uyması üçün müəyyən qədər dəyişikliklərə tabe tutulduqdan sonra ilkin kodlama vərəqi formalaşdırılacaqdır. Bundan sonra, əlimizdə olan kodlama vərəqi ilə birlikdə pilot kodlama edəcək və ortaya çıxan əlavə trendləri də ayrıca kateqoriyalar şəklində kodlayacağıq. Kodlama vərəqinin bundan sonra yaranacaq son halını isə digər mənbələri kodlamaq üçün istifadə edəcəyik. Bütün bunları nəzərə alaraq prosesi bitirdikdən sonra kodlama vərəqimiz aşağıdakı kimi formalaşmışdır:

| | | | |
|---|---|---|---|
| Mnəzəri | **ekM**<br>etnik və kültürəl millətçilik nəzəriyyəsinə uyğun gələn bütün postların aid ediləcəyi kateqoriya | Kültür/ mədəniyyət – KM | Türk kültürü, mədəniyyəti, simvolikası, dil və din ilə əlaqədar olan postlar |
| | | Siyasi dəstək - SD | Türk dövlətlərinə və ya digər dövlətlərdə olan etnik azlıqlara verilən dəstəklə bağlı postlar |

| | | | |
|---|---|---|---|
| | | Ortaq dəyərlər – OD | Digər türk ölkələri və başqa ölkələrdə yaşayan etniklərlə paylaşılan ortaq dəyərləri göstərən postlar |
| | | Ortaq düşmən obrazı – ODO | Millət üçün ortaq olan düşmən, rəqib imici təbliğ edən postlar |
| | | Hərbi güc – HG | Millətin hərbi gücü, bacarığı, şəhidlik, qəhrəmanlığı və bunlara hörmətlə bağlı postlar |
| | | Tarix –TR | Milli tarix və digər türk dövlətləri ilə paylaşılan ortaq tarix və türk köklərə işarə edən tarixi postlar |
| | | Sənət və ədəbiyyat – SƏ | Milli sənət və ədəbiyyatla və əlaqəli, ictimaiyyətə açıq tədbirlərlə bağlı olan postlar |

| | | | |
|---|---|---|---|
| | **sM** | Daxildəki fərqli qruplar – DFQ | Ölkədə olan digər etnik azlıqlara qarşı bərabər və ədalətli münasibətlə əlaqəli postlar |
| | | Təsir gücü - TG | Ölkənin regionda və ya dünyada baş verənlərə təsir etmə və diplomatiya gücünü önə çıxaran və ya olmamağını pisləyən postlar |
| | sivil millətçilik nəzəriyyəsinə uyğun gələn bütün postların aid ediləcəyi kateqoriya | Ordu – ORD | Ordunun gücünü önə çıxaran postlar |
| | | Dövlət və dövlətçilik tarixi – DD | Dövlət quruculuğu və dövlətin yaranmasında, varlığında önəmli olan günlər, hadisələr və proseslərlə bağlı postlar |
| | | Siyasi vəziyyət – SV | Ölkədəki siyasi vəziyyət, idarəetmə ilə bağlı tərifləyən və ya pisləyən, siyasi prosesdə iştirakla bağlı olan postlar |

| | | | |
|---|---|---|---|
| | | İqtisadi uğur - İQ | Ölkənin iqtisadi gücünü və potensialını, rifah səviyyəsini vurğulayan və ya olmamasını qınayan postlar |
| | | Elmi və texnoloji uğurlar - ET | Ölkənin qazandığı və ya qazanacağı elmi və texnoloji uğurlarla əlaqəli postlar |
| | | İdman uğurları - İD | Ölkənin idmanda qazanılmış uğurları ilə əlaqəli postlar |
| Mpraktiki | Mprak – nəzəriyyədə tərifi verilmiş millətçiliyin izahına uyğun gəlməyən lakin öz auditoriyasına millətçiliyin bir parçası olaraq təklif edilən postlar | | |

## Data

Qeyd edilmiş zaman aralığı ərzində 12 səhifədən ümumilikdə 3185 post kodlanmışdır. Bu postlardan 1346-sı 2020-ci ilin ilk 6 ayı ərzində 4 xəbər temalı milli səhifədən kodlanmışdır. Yerdə qalan 1839 post isə digər 8 səhifə tərəfindən 2019-cu il ərzində paylaşılmışdır və burada kodlanılmışdır. Kodlama zamanı birdən çox kateqoriyaya aid ola biləcək postlar yalnız bir dəfə və kodlama vərəqində üstdə olan kateqoriya daxilində kodlandığı üçün bəzi kateqoriyalarda rəqəmlər daha az

görülmüş ola bilər. Lakin onu da qeyd etmək lazımdır ki, bu hal davamlı deyil və daha çox istisnai hal təşkil etmişdir. Buna görə də kodlama vərəqində aşağıda olan kateqoriyalar üçün rəqəmlərdə böyük fərqlərə yox, çox cüzi fərqlərə yol açmışdır və bundan yaranan fərqləri böyük təsiredici saymamaq da olar. Beləliklə, kodlamadan əldə etdiyimiz nəticələr kateqoriyalar üzrə aşağıdakı kimi formalaşmışdır:

**Ümumi nəticələr**




Bu kateqoriyalar üzrə nəticələr əsasında aşağıdakı kimi sosial media profili qurulmuşdur. Bu sosial media profili Facebookdakı səhifələrin əsasən hansı kateqoriyalara üstünlük verdiyi və bununla da hansı düşüncələrin sosial şəbəkədə daha dominant olduğunu görməkdə bizə vizual olaraq kömək edir. Profilin bir tərəf üzrə meyilliyi burada nəzəri tendensiyanı göstərir. Paylaşımların ümumi olaraq bir nəzəri fikir əsasında edildiyi buradan da bizə aydın olur. Ümumilikdə isə postların nəzəri olaraq faizləri isə bir sonrakı qrafikdə öz təsvirini tapır.




Ümumi paylaşılan postlardan seçdiyimiz milli mövzulu postlarda ən çox istifadə olunan nəzəri baxış bucağı böyük fərqlə etnik və kültürəl millətçi baxış olmuşdur. Statistikadan da göründüyü kimi millətçiliyə aid olmayan postlar istisna olmaqla digər bütün postların 75.3%-i etnik və kültürəl millətçi, 15%-i sivil millətçi və 9.7%-i isə nəzəri olaraq millətçiliyə aid olmayan lakin praktikada millətçilik kimi təqdim edilən düşüncələr əsasında formalaşıb paylaşılmışdır. Nəzəriyyə faizləri kodlama vərəqində Mnəzəri kateqoriyası daxilində olan ekM və sM alt kateqoriyasına daxil olan bütün alt kateqoriyaların rəqəmlərinin toplamı və Mprak kateqoriyası rəqəmləri əsasında formalaşdırılmışdır. Növbəti bölmədə bu rəqəmlərin və qrafiklərin nə mənaya gəldiyi, niyə belə formalaşdığı və səbəbləri ilə bağlı izahlar öz əksini tapacaq.




Əlavə olaraq, yuxarıda da qeyd etdiyimiz kimi data iki fərqli tip temalı səhifələrdən toplanmışdır: 1) xəbər temalı - burada əsasən gündəlik hadisələrə önəm verən, onları millətçi perspektivlə təqdim edən səhifələr seçilmişdir (bu məzmundan əlavə də mütəmadi fərqli növ paylaşımların olması istisna edilmir); 2) xüsusi/milli temalı - burada isə milli kimliyin fərqli aspektlərinə vurğu edən, tarixi, kültürəl məzmunlu, habelə fərqli hərəkatların səhifələri müəyyən olunmuşdur. Bu iki fərqli temalı səhifələrin millətçi təbliğatda hansı oxşarlıq və ya fərqliliklərinin olmasını aşağıdakı vizuallar ümumi formada təsvir edir:

## Xəbər temalı səhifələr üçün nəticələr



## Xüsusi/milli temalı səhifələr üçün nəticələr




Hər iki tip temalı səhifələrdə ümumi nəticəyə bənzər olaraq dominant variant kimi etnik və kültürəl millətçi postlar üstünlük təşkil edir. Buna baxmayaraq, xəbər və xüsusi/milli temalı səhifələrin müqayisəsində müəyyən fərqlər ortaya çıxır. Belə ki, xəbər temalı səhifələrdə etnik və kültürəl millətçi məzmunlu postlar 69 % təşkil edərkən, xüsusi/milli temalı səhifələrdə bu təxminən 10% çox, 79.9% olmuşdur. Bu, əsasən, sivil millətçilik əsaslı postlara verilən fərqli ağırlıqdan qaynaqlanmışdır. Xəbər temalı səhifələr nisbətdə daha çox sivil millətçiliyə uyğun təbliğat apararkən - 19.9% - xüsusi/milli temalı səhifələrdə bu rəqəm 11.4% olmuşdur. Praktiki millətçilik kateqoriyasında isə müvafiq olaraq 11.1% və 8.7% rəqəmləri meydana çıxmışdır. Aşağıdakı qrafiklərdən birincisi xəbər temalı səhifələri üçün, ikincisi isə xüsusi/milli temalı səhifələr üçün bu statistikanı təsvir edir:

## Xəbər temalı səhifələr üçün nəticələr




## Xüsusi/milli temalı səhifələr üçün nəticələr



## Etnik və kültürəl millətçilik

İlk öncə onu vurğulamaq lazımdır ki, etnik və kültürəl millətçilik Azərbaycanda ən azından sosial şəbəkədə böyük bir yer tutur və millətçilik adı altında edilən paylaşımların çoxu etnik və kültürəl millətçiliyin nəzəri tərifinə uyğun gəlir. Ədəbiyyatda millətçilik, əsasən, millətin siyasi müstəqilliyinə can atan qrup hərəkatı kimi nəzərdən keçirilir və burada da ideologiyanın tərəfdarlarının millət anlayışı əhəmiyyət daşıyır. Belə ki, Azərbaycan nümunəsində siyasi milli müstəqilliyə çatmış - milli dövlətə sahib qrup görünür, lakin müstəqillikdən təxminən otuz il sonra belə etnik və kültürəl elementlərin millətçi təbliğatda dominantlığı millət anlayışının daha çox etnik təməllərə dayandığına və ideologiyanın missiyasının hələ də tamamlanmadığına işarə edir. Bu konteksdə Hugh Seton-Uatson millətçiliyin hədəflərini iki yerə bölür: 1) müstəqillik - millətin dominant olduğu suveren dövlətin yaradılması; 2) milli birlik - millətin üzvü hesab olunan, yaradılmış dövlətin sərhədlərindən kənarda qalan üzvlərin həmin dövlətin çətiri altına alınması (1977). Bu mənada Azərbaycanda millətçilik ilk missiyaya, yəni milli dövlətin qurulmasına nail olsa da, millətin etnik və kültürəl baxımdan qavranılması ikinci hədəfi aktuallaşdırır. Bu isə dövlət sərhədlərindən kənarda olan milləti təşkil etdiyi düşünülən üzvlərə emansipasiyada özünü göstərir. Qeyd olunan faktorlar da datada özünü göstərmiş və müxtəlif istiqamət və kateqoriyalarda etnik və kültürəl elementlərin dominantlığına gətirib çıxarmışdır.

Bu bölməyə daha geniş baxaq. İlkin olaraq qeyd etmək lazımdır ki, bu kateqoriyaya aid mövzular arasında ən əsas yeri ortaq düşmən obrazı tutur və bu ortaq düşmən obrazı müəyyən hadisələrə və tarixlərə görə dəyişə bilər. Karl Şmitin siyasi münasibətlərdə istifadə etdiyi “dost və düşmən fərqləndirməsi” konsepti bu kontekstdə yardımçı olacaq (2007). Ona görə, formal və konstitusional çərçivələrdən müstəqil, qruplar arasında siyasi münasibətlərin formalaşdırılması dost və düşmənin fərqləndirilməsi ilə mümkündür. Burada dost və düşməni fərqləndirən kriteriyalar etnik, mədəni, əxlaqi və s. kimi müxtəlif məsələlərdən qaynaqlana bilər. Lakin bu fərqlərin siyasi məzmuna daşınması, yəni dost və düşməni meydana gətirməsi, bu fərqlər uğrunda öz qrupunu müdafiə edəcək, qarşıdakını öldürəcək, bu uğurda fədakarlıq edə biləcək “dost” üzvlərin varlığını və gücə çevrilməsini tələb edir (Eyni yerdə). Azərbaycandakı millətçi təbliğat nümunəsində düşmənlərin

fərqləndirilməsi birdən çox kriteriyalardan keçir. Bunlardan ilki təbii olaraq etnik və kültürəl markerlərdir. Digəri isə başlıca olaraq düşmən tərəfin ədalətsiz, əxlaqi olaraq pis və türklərin digərlərinə qarşı ədalətli, əxlaqi olaraq yaxşı keyfiyyətlərə sahib olması düşüncəsidir. "Düşmən bizə qarşı tarix boyu haqsızlıqlar edib, biz həmişə unutqan, bağışlayan olmuşuq. Buna baxmayaraq, artıq milli kimliyi və millətin üzvlərini qorumaq üçün düşməni tanımalı və buna görə hərəkət etməliyik".

Maraqlı olan və nəzəriyyəylə üst-üstə düşən əsas məqam burada düşmənin ölkə səviyyəsində yox, millət səviyyəsində görünməsidir. Bu baxımdan, düşmən Ermənistan yox ermənilər, Rusiya yox ruslar, İran yox farslardır. Bunun birinci səbəbi o ölkələrdə fərqli millətlərin də yaşaması və o millətlərə qarşı bir aqressiyanın olmaması və ya daha zəif olmasıdır. Digər bir səbəb kimi isə bu milli qruplarla milli dövlətə sahib olmadan öncə olan tarixi kontaktlar götürülə bilər. Belə ki, dövlət olaraq düşmən göstərilmədən tarixi yaddaşa uyğun şəkildə həmin millətlər düşmən kimi proyeksiya olunur. Əsas görünən, ən önəmli və diqqətə alınmalı düşmən obrazı olaraq ermənilər görülür və bu da Qarabağ münaqişəsi fonunda normal haldır. İkinci ən önəmli düşmən obrazı isə farslar kimi götürülür və burada da fundamentdə Güney Azərbaycan məsələsi durur. Ruslara qarşı olan düşmən obrazı isə daha çox siyasi fonda özünü göstərir və "düşmənin dostu", "imperiya və sovet vaxtlarında bizi istismar etmiş keçmiş müstəmləkəçi" və bu kimi sifətlərlə onlara qarşı bir obraz yaradılır əsasən. Bu diskursların önəminin artmasında, bəlkə də, Elçibəyin rolunu qeyd edə bilərik ancaq Elçibəyin əsas təsir etdiyi hissələr haqda bir az sonra bəhs edəcəyik.

Hərbi güc və tarix çox az fərqlə geridən gələn bir sonrakı kateqoriyalardır. Düşmən obrazı bəlli olduqdan sonra artıq bu obraza qarşı gəlməli olan və sonda qazanacaq bir qəhrəman obrazı vacibiyyəti də yaranır. Burada artıq milli tarix quruculuğu ilə başlayan bu təbii tendensiyanı sosial şəbəkələr də öhdələnməyə cəhd edir. Əsas toxunulan məqamlar türkün güclü olduğu, tarix boyunca hərb sahəsində qazandığı uğurlardır ki, bunlar özlüyündə indinin məğlubiyyət hissini unutdurmaq üzərində qurulmuşdur. Yaxın tarixdəki siyasi və milli məğlubiyyətlər zamanı itirilən özgüvən keçmiş tarixi dövrlərə müraciət edilərək geri qazanılmağa çalışılır. Burada tarixi türk imperiyalarına vurğu, millətin hərbi bacarıqlarının təsviri, türk əsgərinin qəhrəmanlıq və fədakarlıqları kimi mövzular əsas yer tutur. Yəqin ki, bunu ən yaxşı izah edən Nhal

Atsızın Kürşad obrazıdır ki, bir gün gələcək və türk öz gücünün fərqinə vararaq zülmkarı məhv etməyə atılacaq. Nə qədər görünməsə də, Nihal Atsızın bu gün Azərbaycan millətçiliyində etnik və kültürəl seqmentə etdiyi təsir bəllidir: "Bozqurdlar necə ölmüşdüsə, bir gün yenidən diriləcəklər, çünki onlar hər zaman savaşçı olublar, hər zaman ədalətli olublar. Xeyir və şərin mübarizəsində hər zaman xeyirin yanında duran bu millət bu gün hansısa cəbhədə məğlub olubsa, deməli, bu hələ ki bozqurdların ölümüdür və bozqurdların dirilməsi də çox uzaqda deyildir" (Atsız 2015). Milli tarix kateqoriyasına daxil olan postların bir hissəsi isə millətin dövlətçilik tarixinin pre-modern zamanlara bağlanmasını hədəfləyir. Burada başlıca olaraq Ağqoyunlular, Səfəvilər dövləti, Əfşarlar imperiyası kimi feodal dövlətlərin müasir Azərbaycanda yaşayan Azərbaycan türklərinin sahib olduğu dövlətlər və müasir Azərbaycan dövlətinin isə onların varisi kimi təqdim olunması gözə çarpır. Burada millətin həm hərbi, həm də qədim idarəetmə bacarığına işarə edilir.

Pre-modern dövlətlərə bağlılıqlardan əlavə olaraq, demək olar ki, bütün mənbələrdə cümhuriyyət mövzusu bu və ya digər şəkildə öz yerini tapır. İlkin olaraq, cümhuriyyət dövrü millətin tarixində uğurlu period kimi təsvir olunur, burada millətin siyasi-dövlətçilik bacarığına vurğu edilir və həmin dövrə xüsusi bir nostalgiya hissi müşahidə olunur. Digər bir tərəfdən isə cümhuriyyəti yaradan elita və xüsusilə onların təmsil etdiyi ideya önə çəkilir. Türklük, müasirlik və islam elementləri o dövrün milli düşüncəsini təşkil edərkən müasir dövrdəki millətçi təbliğata da öz təsirini göstərir.

Əsas yeri tutan düşmənə qarşı olan kateqoriyalardan sonra, etnik və kültürəl millətçiliyin biraz daha geridə qalan kateqoriyaları bu dəfə dost obrazları üzərində qurulur. Bu temanın əsas komponentləri milli kültür və mədəniyyət, etnik bağlarımız eyni olan digər qruplarla olan ortaq dəyərlərimiz, bizim onlara, onların bizə verdiyi siyasi dəstək, son olaraq isə milli sənət və ədəbiyyatdır. Bu baxımdan yuxarıda qeyd olunan, millətçiliyin ikinci missiyası kimi milli birlik hədəfi özünü göstərir. Bu kateqoriyaların diskursa daxil olmasındakı əsas təkanverici yəqin ki, Elçibəy olur. Güney Azərbaycan, Kərkük məsələləri, milli kültürümüzə daha çox dəyər verilməsi və ucaldılması, etnik bağlarımız olan dövlətlərlə əlaqələri möhkəmləndirmək arzusu və digərləri buna misal ola bilər. Elçibəyin təsiri burada həm siyasi düşüncəyə, həm də kültürəl qavrayışa olmuşdur. Siyasi fəaliyyəti boyunca digər türk dövlətləri ilə əlaqələrin

gücləndirilməsi ilə bağlı cəhdlər, digər dövlətlərin ərazilərində azlıq təşkil edən türklərə münasibətdə kəskin siyasi mövqe bu məsələlərin indiki dövrdəki millətçilikdə belə siyasi baxışa təsirinə gətirib çıxarmışdır. Bu sıradan olan məzmun əsasən üç hissəyə bölünə bilər. İlk olaraq Güney Azərbaycan mövzusu diqqəti çəkir. Oradakı hərəkatı dəstəkləyən, güney azərbaycanlıların quzeyə olan sevgisini, bağlılığını təbliğ edən paylaşımlar çoxluq təşkil edir. Bir gün millətin yenidən qovuşacağı, sərhədlərin itəcəyi düşüncəsi təbliğ olunur. İkinci geniş ayrılan mövzu Türkiyə ilə bağlıdır. Burada həm Türkiyə dövlətinə siyasi dəstək paylaşımları, həm də Türkiyənin Azərbaycana münasibətdə aktları qabardılır. “Bir millət, iki dövlət” sloqanının təsiri bir çox məzmunda hiss olunur. Burada təbii – etno-kültürəl bağlardan əlavə olaraq iki faktorun təsiri əsas götürülə bilər. Birincisi, müstəqillikdən bəri Türkiyədən televiziya vasitəsilə gələn mədəni təsirlərdir. Belə ki, ilk dövrlərdən yaranan əlaqələr, Türkiyə media, xüsusilə film-serial sektorunun yumşaq güc şəklində təsiri danılmazdır. İkincisi isə, Türkiyənin regionda gücü və təsiri nəzərə alındıqda Azərbaycan dövləti tərəfindən doldurula bilinməyən o boşluq “qardaş dövlət” vasitəsilə doldurulur. Seçilən mənbələrdə Türkiyənin beynəlxalq arenada hər hansı bir uğuruna həm də Azərbaycandakı türklərin də uğuru kimi baxılır. Üçüncü xətt isə Kərkük türkmənləri və Çində uyğurlarla bağlı mövzulardır. Burada həmin qrupların haqsızlığa uğramaları məsələsi və onlarla bölüşülən ortaqlıqlar təsvir olunur.

Bundan əlavə etnik-kültürəl kateqoriyada dil mövzusu xüsusi yer tutur. Müasir Azərbaycan dilinin tarixi köklərinə vurğu, onların orta əsrlərdən bəri istifadəsi və regionda mövcud olan digər dillərlə qarşılaşdırmalar əsas planda yer alır. Səfəvilər və Qacar imperiyaları dövründə türk dilinin işləkliyi və saray dili kimi onun yüksək elitalar tərəfindən mənimsənilməsi vurğuları gözə çarpır. Burada həm də millətin qədim dövlətçilik tarixini önə çəkmə niyyəti vardır. Bu mənada qeyd olunan imperiyalarda istifadə olunan dil, hətta Osmanlı dövləti tərəfindən istifadə olunan dillə qarşı-qarşıya qoyularaq Azərbaycan türkcəsinin daha yumşaq və zərifliyi, saflığı təbliğ olunur. Dilə həm tarixi, həm də simvolik baxımdan bu qədər yer verilməsi onun milli kimliyi formalaşdıran ən əsas element olması ilə bağlaya bilərik. Azərbaycandakı etnik-kültürəl millətçilik baxımından digər sərhədlər daxilində yaşayan soydaşlara münasibətdə ən çox ortaqlıq təşkil edən element kimi dil önə çıxır. Belə ki siyasi proseslər nəticəsində tarixi inkişaf yolları baxımından

fərqli mühitlərdə fəaliyyət göstərməyə məcbur olan üzvlər arasında dil kommunikasiya vasitəsi kimi daha dözümlü çıxmışdır və indi də əsas bağlardan birini təşkil edir. Bu baxımdan dil mövzusuna verilən önəm gözləniləndir.

**Sivil millətçilik**

Sivil millətçilik kateqoriyasında əsas təəccüb doğuran ölkə daxilindəki digər fərqli etnik qruplarla olan əlaqələrə, onlara qarşı olan rəftara aid yanaşmaya çox nadir hallarda rast gəlməyimiz idi. Baxmayaraq ki, sivil millətçiliyin əsas fundamentlərindən biri də fərqli etnik qrupların vahid sivil milləti yaratmasıdır, bu mövzu böyük səviyyədə diqqətdən kənarda qalır. Bu da özlüyündə Azərbaycan millətçiliyinin böyük əksəriyyətlə etnik və xaricə istiqamətlənmiş olduğunu bir daha göstərir. Lakin burada yaranan boşluğu əsasən dövlətçilik kateqoriyası öz tərkibində həll etməyə çalışır və dolayısıyla dövləti sadəcə bir millətin yox, ölkə daxilindəki digər etnik qrupların da dövləti kimi təsvir edir. Oxşar yanaşma ordu ilə bağlı da özünü göstərir və ordu sadəcə türk millətinin yox, Azərbaycan Respublikasının yəni bütün vətəndaşların ordusu olaraq sivil millətçilik üçün yol açır. Belə halda nəzəriyyə hissəsində bəhs olunan, müharibə elementinin milli birlik və dövlətçi millətçiliyi önə çəkməsindəki rolu Azərbaycan nümunəsində də görülür. 1990-cı illərin əvvəlindəki Qarabağ müharibəsi və hal-hazırda Ermənistanla Dağlıq Qarabağ üzərində davam edən münaqişə xüsusi rol oynayır. Ordunun gücü və onun edə biləcəkləri mövzusunun qabardılmasıyla ümumi vətəndaş kimliyində özgüvən yenilənməsi hədəflənir.

Digər təəccüblü məqam nə qədər millətçiliyin dövlətin əlində istifadə edilən bir alət olduğu, millətçilərin əsasən dövlətçi olduğu və siyasi proseslərdən kənarda qaldıqları görüntüsü olsa da, sivil millətçilik daxilində ən çox yer verilən kateqoriya ölkədəki siyasi vəziyyətlə bağlı olub və bu əsasən də hökümətin siyasətini tənqid edən mövqeni tutub. Ancaq nə dərəcədə tənqid mövqeyi tutsa da, sivil millətçiliyin də arxa planda qalan kateqoriyalarında kiçik faizlərlə də olsa, dövlətin gücünə fokuslanan fikirlər də görünür. Bunlar əsasən dövlətin regionda və ya dünyada olan təsir gücü, iqtisadi və texnoloji uğurları, son olaraqsa idman uğurlarıdır. Bu kateqoriyalar bu və ya digər yollarla əsasən dövlətin var olan mövqeyini möhkəmlətməyə, uğurlu və güclü dövlət imici yaratmağa və dolayısıyla sivil millətin fəxr edə biləcəyi bir kimlik yaratmaq məqsədi güdür. Digər

tərəfdən də qeyd olunan sahələrdə dövlətin təsir potensialını vurğulayan, məsələn regionda daha aktiv siyasət tələb edən məzmunlar da az da olsa, nəzərə çarpır.

Sivil kimliyin etnik-kültürəl kimliklə müqayisədə daha zəif olmasını nəzəriyyə hissəsində bəhs etdiyimiz Taras Kuzionun düşüncələri ilə izah etmək olar. Onun fikrincə, sivil milli kimliyin dominant olması həmin millətin keçdiyi tarixi inkişaf yolundan və demokratik konsolidasiya səviyyəsindən asılıdır (2002). Bu baxımdan, ilkin olaraq, tarixi inkişaf cəhətdən Azərbaycanda milli dövlətin gec yaranması və qısa dövlətçilik tarixi ilk kriteriyanı doğrulayır. Bu da öz növbəsində sivil mənada – dövlət əsaslı kimliyin zəifliyini açıqlaya bilir. İkinci olaraq, demokratik konsolidasiya və ümumilikdə, siyasi institutların inkişaf səviyyəsi baxımından da Azərbaycandakı millətçilik Kuzionun testinə uyğun cavab verir. SSRİ-nin süqutu və sonrakı dövrdə demokratikləşmə yolunda uğursuzluqlar insanları sivil-dövlət kimliyindən daha çox özlərini digər kimliklərdə identifikasiya etməyə yönəltmişdir. Bu zaman sivil kimlikdən daha çox digər kimlik formalarının daha çox cazibədar gəlməsi anlaşılandır. Digər kimliklər dedikdə buraya həm əhalini təşkil edən fərqli etnik kimliklər, regional kimliklər (hansı ki, daha çox yerlibazlıq adı ilə tanınır) və s. nəzərdə tutulur. Burada əsasən güclü kimlik axtarışı məsələsi başlıca rol oynayır. Regional kimliklərlə özlərini idetifikasiya edənlər daha çox o kimliklərdə cazibədar elementlər tapa bilir və onunla cəmiyyət həyatında iştirak etmək istəyirlər. Eyni zamanda millətə etnik və kültürəl pəncərədən baxan millətçilər də həmin axtardıqları güclü kimliyi tarixdən çıxara bilirlər. Beləliklə, bu statistikada müvafiq kateqoriyada özünü göstərir. Digər tərəfdən, sivil millətçilik üçün isə bu zəmin mövcud deyil və indiki şəraitdə sivil kimlik lazımi dərəcədə həvəsləndirici arxa planı təmin edə bilmir.

## Praktiki millətçilik

Praktiki millətçilik olaraq adlandırdığımız bu anlayış nəzəriyyəyə uyğun olmayan, ancaq sosial mediada aktiv olaraq: "Millətçilik budur!" – deyə təbliğ edilən dəyərləri əhatə edir. Bu bölmədə əsasən "əsl millətçilik bu deyil" düşüncəsi üzərindən gedəcəyik və nələrin ən azından akademiyada millətçilik olaraq qəbul edilə bilinməyəcəyini göstərəcəyik. Əgər bu əlavələr millətçilik olaraq qəbul ediləcəksə, deməli Azərbaycan millətçiliyinə yeni bir tərif verilməsi ehtiyacı doğulmuşdur. Buna görə də

biz praktiki millətçilik daxilində də bir daha bölünməyə gedərək iki alt kateqoriya kimi təyin edəcəyik: millətçilik daxilində olmamalı olan, zərərli praktiki əlavələr və millətçiliyin lokal olaraq veriləcək yeni tərifində artıq müasir zamanla uyuşması üçün mütləq bir nəzəri parçası halına gəlməli olan, dəyərli praktiki əlavələr.

Ən çox gözə çarpan zərərli məsələ millətçiliyə şəxsiyyət kultunun daxil edilməyə çalışılmasıdır. Burada əsas ilahləşdirilən şəxs Elçibəy, daha sonra isə Rəsulzadə və Atatürkdür. Problemli olan bu şəxslərə qarşı sevgi, onların qatdığı dəyərə vurğu etmək yox, bu şəxslərin heç bir səhvləri olmadığı və baş verən hər bir hadisəyə onlardan sitatların gətirilməsidir. Bu məqamda artıq bu önəmli şəxslərə dəyər verilməsi yox, şəxsiyyətpərəstlik olaraq adlandırılmalıdır. Burada dini elementin də təsiri var ki, bu günün hadisələri də bu şəxslər tərəfindən öncə görülüb, onlar bu günümüzə də artıq işıq tutub. Beləliklə şəxsiyyət kultu yaranır və həmin şəxsiyyətə peyğəmbərlik xüsusiyyətləri əlavə edilir: həmin şəxs səhvsiz olub, sonsuz fədakarlıq edib, ağrı-acılar çəkib ancaq qarşısında sınmayıb, hər zaman doğru fikirdə olub, gələcəyi də görüb və bizə bununla bağlı öncədən xəbərdarlıq edib. Bu səbəbdən artıq millətçilik öz peyğəmbərləri olan bir din kimi dəyişkənlik göstərir və öz ilkin məqsədlərindən qopur. Artıq əsrimizin yeni qəhrəmanını gözləyən bu qrupu isə çox zaman ya yalançı qəhrəmanlar aldadır, ya da onlar öz fəaliyyətlərini sadəcə tarixi həsədlə sərhədləyirlər. Buna milli tənbəllik adı da verilə bilər.

İkinci zərərli məsələ Türkiyəyə meyillilik və bəzən Azərbaycan maraqlarını fəda etmək naminə Türkiyəçilikdir. Etnik və kültürəl millətçilik bölümündə Türkiyə ilə bağlı nəzəriyyə hissəsinə uyğun gələcək dərəcədə qəbul edilən hallar öz əksini tapıb, burada isə daha çox nəzəriyyədən kənara çıxan və zərərli ola biləcək yanları barədə. Ən əsas gözə batan faktor Türkiyənin daxili və xarici siyasətinin böyük şəkildə mediada yer alması və bunun Azərbaycan üçün də bəzən ölüm-qalım söhbətinə çevrilməsidir. Bundan əlavə olaraq Türkiyənin Azərbaycan siyasətinə, əsasən xarici siyasətində Ermənistana qarşı, birbaşa və ya dolayı yolla verdiyi dəstəyin də etnik millətçiliyin təsdiqi kimi reklamı da yüksək dərəcədə aparılır. Burada məqsəd Türkiyənin verdiyi dəstəyin gözdən salınması deyil, ölkə gündəminin yeri oldu-olmadı Türkiyə mövzuları ilə əvəzlənməsidir. Digər məsələ Türkiyə və Osmanlı tarixi, həmin dövrdə baş vermiş qəhrəmanlıqlar və qələbələrin etnik bağlarla dolayısıyla

Azərbaycana da çatdırılmasıdır. Bu məsələdəki əsas problemli nöqtə böyük qardaşa duyulan həsəd və həsrətdir ki, bu ssenaridə də böyük qardaş Türkiyə, kiçik qardaş isə Azərbaycandır. Biraz öncə də vurğuladığımız kimi bu milli tənbəllikdən və qurtarıcıya duyulan ehtiyacdan qaynaqlanır. Qurtarıcı gözləyən millətlər isə heç vaxt öz qurtarıcısını yetişdirə bilmir.

Digər zərərli əlavələrdən biri də millətçiliyin populizmə tərəf yozulmasıdır. Populizm 4 əsas fikrin birlikdə varlığı şəklində ortaya çıxır: (1) biri “xalq”, digəri “müəyyən edilmiş elita” olmaq üzrə iki homogen qrupun varlığı; (2) bu qruplar arasında düşmənçilik əlaqəsinin varlığı; (3) burada “xalq” ərdəmli və fəzilətli olaraq, elita isə pozulmuş olaraq təsvir edilir; və (4) xalqın iradəsi legitimliyin aparıcı mənbəyi sayılır (xalq suverenliyi) (Spruyt və digərləri, 2016). Burada populizmlə oxşarlığın və yanlışlığın əsas səbəblərindən biri də budur ki, populizmin öz ideoloji bazası yoxdur və sadəcə digər düşüncələrə reaksiya verərək var ola bilir. Sosial mediadakı millətçilikdə də sol və liberal düşüncələrə qarşı olan bu reaktiv mövqe də millətçiliyin yanlış olaraq populizm kimi təqdim edilməsinə gətirib çıxarır. Bizim misalımızda populizmdən biraz fərqlənən məsələ elitanın əks ideologiyalarla əvəz edilməsidir. Bu dəyişikliyi etdikdən sonra digər dörd əsas fikrin hamısı öz əksini tapır. Lakin bu mövqe millətçiliyin heç bir ideoloji tərifinə uyğun gəlmir və praktiki olaraq nəzəriyyədən kənar şəkildə millətçilik konseptinə əlavə edilmişdir. Nəticə etibari ilə millətçilik cəmiyyət hadisələrində sadəcə passiv mövqe alaraq yalnız var olan əks ictimai fikirlərə qarşı cəbhə alaraq rol oynamamalıdır, əksinə həm də öz nəzəri bazasından yeni ictimai fikirin ortaya çıxarılmasında çox zaman təşəbbüskar rolunu üstlənməlidir.

Zərərli praktiki əlavələrin yanında dəyərli praktiki əlavələr də az da olsa gözə dəyir və bunların ümumi nəzəriyyənin bir parçası halına gəlməsi ideologiyanın özünün də müasir problemlərə cavab verməsini asanlaşdıracaq. Bunlardan ilkin olaraq ətraf mühitlə bağlı problemlər məsələsidir və ya ətraf mühitçilikdir. Sosioloqlar Riley E. Dunlap və Kent D. Van Liere 1978-ci ildə yeni ətraf mühit paradiqması (NEP - new environmentalist paradigm) ilə ətraf mühitçiliyin əsas xarakteristikalarını verdilər. Bunlar “böyümənin limitlərinin olması”, “təbiətdəki balansı qorumaq” və “təbiətin sadəcə insan istifadəsi üçün var olduğunu iddia edən antropomərkəzli” düşüncənin rədd edilməsidir. 2000-ci ildə araşdırmaçılar 2 əlavə elementi də NEP-ə əlavə etdilər: insanların

“məsuliyyətdən yayınmağının” rəddi (insanların təbiətə toxunma məhdudiyyətləri ilə sərhədlənməsi) və katastrofik ətraf mühit dəyişiklikləri ehtimalının və ya ekokrizlərin olması (Cannon 2015, 6). Millətçilik daxilində yer verilən ətraf mühitçiliyin əsas yönləri Urmiya gölü, Kür çayı və bəzən meşələrin şəxsi mənfəət üçün yandırılmasına ehtiyac olaraq üzə çıxır. Lakin, bunun ideoloji olaraq əsaslandırılması və düşüncənin tərkibində öz xüsusi yerini alması halına hələ ki həyata keçməyib. Digər tərəfdən isə bütün bir millətin bu gününə və gələcəyinə təsir edən bir məsələ olaraq, eyni zamanda Güney Azərbaycanda Urmiya gölü kimi böyük bir ekoloji problem olduğu üçün bu məsələnin millətçilik düşüncəsinin daxilində nəzəri olaraq da varlığı lazımdır və vacibdir.

İkinci dəyərli praktiki əlavə isə qadınlara qarşı olan zorakılıq məsələsidir. Bu məsələ daha çox Türkiyədən gələn xəbərlər nəticəsində cəmiyyətdə müəyyən reaksiyanın yaranması səbəbində ortaya çıxmışdır. Qadınlara qarşı şiddət, qadınların kişilərdən daha aşağı rəftara məruz qalması, daha az maaşla işləməyə məcbur qalması, ailəiçi şiddət nəticəsində çoxlu sayda qadının öldürülməsi və ya ömürlük fiziki problemlərlə yaşayamağa məcbur qalması məsələləri gündəmə az da olsa gəlir. Lakin millətin elə yarısının qadınlardan təşkil olunmasına baxmayaraq, bu məsələnin tam şəkildə millətçilik düşüncəsinin içinə girdiyini görə bilmirik. “Qadınlara qarşı olan qlobal şiddət milli təhlükəsizlik məsələsidir çünki, dövlətin stabilliyi həm az inkişaf etmişliklə, həm də cinsi bərabərsizliklə əlaqəlidir. Həmçinin, qadına qarşı şiddətin yüksək olduğu ölkələr əsasən uğursuz dövlətlər olmağa doğru gedir” (Mason 2013, 56). Buna görə də, qadın haqları da millətçilik üçün dəyərli olacaq əlavələrdən biridir və nəzəriyyənin də içində öz yerini almalı və bu mövzuda daha çox iş görülməlidir. Hal-hazırda qadın mövzusunun praktiki nəzəriyyədə var olmasını da biz AXC dövründə qadınlara faktiki də olsa verilən haqlara və qadınların Türk kültüründə heç də kişilərdən aşağı olmayan yeri ilə əlaqələndirə bilərik. Ancaq buna baxmayaraq bu gün cəmiyyətdə qadınlara qarşı şiddətin və haqsızlığın var olduğunu və buna lazımi qədər diqqət ayrılmadığını nəzərə alsaq, bu mövzuya daha böyük yer verilməsi vacibdir.

## Nəticə

Məqalənin əsas məqsədlərindən biri Azərbaycanda sosial şəbəkədə təbliğ olunan millətçiliyin nəzəriyyədəki yerini və buna uyğun onun hansı diskurs daxilində fəaliyyət göstərdiyini ortaya çıxarmaq idi. Bu baxımdan məsələyə ədəbiyyatdakı mübahisə və təsnifatlar əsasında iki suala cavabla aydınlıq gətirmək olar. Birincisi, ədəbiyyatda millət və millətçiliyin araşdırılmasındakı yanaşmalardan iki cəbhədən hansının Azərbaycandakı millətçi təbliğatı izah edəcəyini cavablamaqdır. Əvvəl də qeyd etdiyimiz kimi başlıca olaraq millət və millətçiliyin müasir fenomen olduğunu iddia edən modernistlər və bu anlayışların pre-modern köklərinin olduğunu iddia edən primordialist və etnosimvolistlər arasında mübahisə mövcuddur. Burada araşdırılan millətçiliyin ikinci qeyd olunan cərəyanla daha çox uyğunluq təşkil etdiyini demək mümkündür. Məsələyə geniş toxunmadan öncə ikinci sualın da cavabını bildirək. Bu isə Azərbaycanda təbliğ olunan millətçiliyin sivil yoxsa etnik-kültürəl əsaslara dayanması ilə bağlı idi. Əldə olunan datadan və ilkin qoyulan suala cavabdan da aydın olduğu kimi etnik-kültürəl elementlər Azərbaycanda millətçi hekayə quruculuğunda dominant yerə sahib olub. Bunlardan əlavə millətçilik nəzəriyyəsindəki təriflərə uymayan və daha çox ixtiyari əlavələrdən ibarət olan praktiki millətçilik kateqoriyası da meydana çıxır. Bunun daxilində isə uzun müddətdə millətçiliyə daxil olub yararlı və zərərli ola biləcək mövzular müəyyənləşdirildi. İndi isə qeyd olunan cavablara daha yaxından baxaq.

Birinci və ikinci suallar və cavabları bir-biriləri ilə qarşılıqlı əlaqəli olduğu üçün onları paralel formada təqdim edəcəyik. Sosial şəbəkələrdə təbliğ olunan millətçilik etnik-kültürəl təsnifata uyğun gəlir və bu millətçiliyin konturlarının araşdırılmasında millətlərin qədim tarixi keçmişi olduğunu müdafiə edən və pre-modern bağların müasir millət və millətçiliklərin formalaşmasında əsas yer tutduğunu qeyd edən primordialist və etnosimvolist yanaşmaların tərifləri ilə oxşarlıq təşkil etdiyini deyə bilərik. Əsas hissədə qeyd olunduğu kimi hekayə başlıca olaraq dost və düşmən çərçivələri ətrafında qurulur. Burada həm dost, həm də düşmənə vurğu edərkən dövlət olaraq deyil, millət olaraq yanaşılır. Düşmənin təsviri və əsaslandırılması tarixi və etnik fundamentlərə oturdulur ki, buradan milli identifikasiyada kollektiv yaddaşın əhəmiyyəti hiss olunur: onlar türkün tarixi düşmənləridir. Əxlaqi fərqləndirmədə isə düşmənin pis, ədalətsiz olduğu, dostun isə yaxşı və ədalətli olduğu təsviri vardır. Maraqlısı odur ki, əxlaqi fərqləndirmə də

etnik köklərlə bağlanılır: türklər ədalətli millətdir. Eyni zamanda dost portreti də etnik və kültürəl əsaslarla təsvir olunur. Burada həm ölkə daxili, həm də xaricində soydaş hesab olunan millətin üzvləri ilə ortaq dəyərlər, tarix, dil kimi mövzular dominantlıq təşkil edir. Güney Azərbaycan, Kərkük, Türkiyə türkləri ilə yaxınlıq məsələləri dost imicində ilk sıralardadır. Azərbaycanlı milli kimliyinin təsvirində pre-modern tarixi dövrlərə bir çox zaman istinad olunur ki, bu da millətə primordialist yanaşmanın məhsuludur. Müasir Azərbaycan dövlətini Ağqoyunlular, Səfəvilər, Əfşarlar kimi dövlətlərin varisi və onları idarə edənləri müasir azərbaycanlıların ataları kimi göstərmək buna nümunədir.

Araşdırılan mənbələr içərisində istifadə olunan simvolika da millətçi diskursun formalaşmasında mifoloji elementlərin təsirini göstərir. Nümunə kimi türkləri təmsil edən bozqurd simvolu bir çox məzmunda rastımıza çıxır. Bu simvolikanın aktuallığını qorumasında türklük elementinin və ədəbiyyatın rolu böyük olsa da, onun bu günlərə qədər gəlməsində 1990-cı illərin əvvəlində Elçibəyin siyasi və ideoloji fiqur kimi fəaliyyətinin təsiri böyük olub. Qısaca isə, bu formada diskursun qalmağı etnosimvolizmin də iddia etdiyi kimi millətçilik üçün qədim dövrün əhəmiyyətini aşkara çıxarır və millətçiliyin böyük ölçüdə etnik-kültürəl əsaslara dayandığına işarə edir.

Sivil millətçilik və modernist yanaşmanın tərifinə uyğun təbliğat əldə olunan data içərisində kiçik yer alır. Burada tarixi reallığın təsiri ilə birgə mövcud siyasi mühitin də təsiri açıqdır. Vətəndaş əsaslı kimlik müstəqillik qazanıldıqdan sonra inkişaf edə bilməyib. Bu səbəbdən millətçi diskursda onun təbliğinin bu qədər az olması gözləniləndir. Burada ortaya çıxan məsələlərdən biri millətçi təbliğatla məşğul olan kəsimlərin cazibədarlığı nə qədər az olsa da, təşəbbüsü ələ alaraq sivil millət anlayışı üzərində işləyib işləməməli olduqlarıdır. Siyasi vəziyyət, dövlətin inkişaf səviyyəsi və tarixi reallıq məlum olsa da, belə bir təşəbbüs hal-hazırkı vəziyyətdə ümumi sivil kimliyin formalaşdırılmasında xeyirli ola bilərmi? Bu haqda indi nəsə demək çətindir, ancaq sivil millətçiliyin diskursda zəif yer alması bir-birilə əlaqəli problemlərin nəticəsidir: sivil millət kimliyi inkişaf etmədiyi üçün millətçilər onda cazibə tapmır və etnik-kültürəl millətçi təbliğata üstünlük verirlər və onların sivil millət kimliyinə qarşı maraqsızlığı bu kimliyi daha da zəiflədir. Lakin bunu yenə də qeyd etmək lazımdır ki, sivil millət anlayışı Azərbaycanda demokratik konsolidasiya və dövlətə institut olaraq inam bərpa edildikdə tam olaraq güclənə bilər.

# Nəticə

Praktiki millətçilik mövzusuna gəldikdə isə sual edilməli olan məsələlərdən biri budur ki, praktiki millətçilik olaraq adlandırdığımız və cəmiyyət tərəfindən nisbətən qəbul edilib millətçilik kimi adlandırılan bu əlavələr elə millətçilik sayılırmı? Bir məsələ aydındır ki, bu praktiki əlavələri millətçilik deyil kimi iddia edə bilmərik. Onlar artıq ideoloji diskursa giriblər və sadəcə nəzəriyyənin daxilinə əlavə edilməyiblər. Beynəlmiləl ideologiyalar xarici akademiklər tərəfindən də dəyişikliklər edilib güncəllənərkən, millətçilik demək olar hər cəmiyyət üçün lokal xüsusiyyətlərə malik olduğundan Azərbaycandakı millətçiliyi heç bir xarici akademik nəzəri olaraq təsbit etməyəcək və ya güncəlləməyəcək. Bu yenilənmələrin və müasirləşmələrin edilməməsi isə Azərbaycanda sosioloq və ideoloqların bu məsələlərdə nəinki yeniləmələri etməsi, heç indiki pərakəndə yaranmış vəziyyətin təsbitini belə etməmələridir. Bu istiqamətdə ümid edirik ki, bu məqalə ən azından başlanğıc təkan rolunu oynayacaq. Praktiki əlavələrdə olan zərərli əlavələr diskursdan çıxarılmalı və dəyərli əlavələr isə yeni diskursa əlavə edilməlidir. Aşağıda isə kiçik zaman aralığında limitli sayda mənbə ilə etdiyimiz araşdırma nəticəsində Azərbaycanda ən azından sosial şəbəkədə var olan millətçilik düşüncələrinin sistemləşdirilmiş formasıdır.



# Ədəbiyyat siyahısı

**Atsız H.N.** Bozkurtlar. İstanbul: Ötüken Neşriyat, 2015

**Cannon, J.** (2015). Environmentalism. In Environment in the Balance (pp. 4-26). Cambridge, Massachusetts; London, England: Harvard University Press. Retrieved from www.jstor.org/stable/j.ctt1c84d8g.4

**Gellner E.** Nations and Nationalism: New Perspectives on The Past Cornell University Press 1983

**Hobsbawm E.** Nations and Nationalism since 1780: Programme, Myth, Reality Cambridge University Press, 1990

**Kohn H**. The Idea of Nationalism: A Study in Its Origins and Background, New York: Macmillan 1944

**Kuzio T.** The myth of the civic state: a critical survey of Hans Kohn's framework for understanding nationalism, Ethnic and Racial Studies, 2002, 20-39

**Kymlicka W.** Misunderstanding nationalism. In R. Beiner (Ed.), Theorizing nationalism Albany: State University of New York Press. 1999 p. 131-140

**Janmaat, Jan Germen**. "Popular Conceptions of Nationhood in Old and New European Member States: Partial Support for the Ethnic-civic Framework." Ethnic and Racial Studies 29, no. 1 (2006): 50-78. doi:10.1080/01419870500352363

**Mann M.** Sources of Social Power, Volume 2: The Rise of Social Classes and Nation-States 1760-1914 Cambridge University Press 1993

**Mason, C.** (2013). Global Violence Against Women as a National Security "Emergency". Feminist Formations, 25(2), 55-80. Retrieved from www.jstor.org/stable/43860686

**Ozkirimli U.** Theories of Nationalism: A Critical Introduction Palgrave Macmillan 2010

**Schmitt, C.** The Concept of the Political: Expanded Edition. Chicago: University of Chicago Press, 2007

**Seton-Watson, H.** Nations and States: an Enquiry into the Origins of Nations and the Politics of Nationalism. London: Methuen, 1977

**Shulman S.** Challenging the Civic/Ethnic and West/East Dichotomies in the Study of Nationalism, Comparative Political Studies, Vol. 35 No. 5, June 2002

**Smith A. D.** National identity. Reno: University of Nevada Press 1991

**Smith, A. D.** Ethno-symbolism and Nationalism: A Cultural Approach, Routledge 2009

**Smith, A. D.** Nationalism and Modernism: A Critical Survey of Recent Theories of Nations and Nationalism, London and New York: Routledge, 1998

**Smith, A. D.** 'The Nation: Real or Imagined', in Edward Mortimer (ed.), People, Nation and State: The Meaning of Ethnicity and Nationalism, I.B.Tauris, 1999 p. 36-42

**Smith, Bruce L.** (17 February 2016). "Propaganda". Encyclopædia Britannica, Inc. http://www.britannica.com/topic/propaganda

**Spruyt, B., Keppens, G., & Van Droogenbroeck, F.** (2016). Who Supports Populism and What Attracts People to It? Political Research Quarterly, 69(2), 335-346. Retrieved from www.jstor.org/stable/44018014

**Tilly C.** Coercion, Capital and European States, A.D. 990-1992, Basil Blackwell, 1990

**Vonk, M., Tripodi, T. and Epstein, I.** "Content Analysis." In Research Techniques for Clinical Social Workers (pp. 106-120). New York: Columbia University Press. 2007 doi:10.7312/vonk13388.11

# Əlavə

Aşağıdakı cədvəldə istifadə olunan mənbələrin siyahısı verilmişdir. Qeyd etdiyimiz kimi səhifə seçimində iki tip temalı səhifələr götürülmüşdür: 1) xəbər temalı - əsasən, gündəlik hadisələrə önəm verən, onları millətçi perspektivlə təqdim edən səhifələr (bu məzmundan əlavə də mütəmadi fərqli növ paylaşımların olması istisna edilmir); 2) xüsusi/milli temalı - burada isə milli kimliyin fərqli aspektlərinə vurğu edən, tarixi, kültürəl məzmunlu, habelə fərqli hərəkatların səhifələri. Səhifələrin adları, onlardan alınan datanın hansı zaman aralığında olması və həmin səhifələrə olan keçidlər cədvəlin əsas hissəsini təşkil edir.

| Temasına görə səhifə tipi | Səhifələr | Zaman aralığı | Keçidlər |
|---|---|---|---|
| Xəbər temalı səhifələr | Turan TV | 1 Yanvar– 31 İyun 2020 | https://www.facebook.com/turantvaz/ |
| | İrəvan TV | 1 Yanvar– 31 İyun 2020 | https://www.facebook.com/irevan.tv/ |
| | Qarabağ Media | 1 Yanvar– 31 İyun 2020 | https://www.facebook.com/karabakhmedia.az/ |
| | Milli Düşüncə | 1 Yanvar– 31 İyun 2020 | https://www.facebook.com/millidusunc/?ref=br_rs |

| Temasına görə səhifə tipi | Səhifələr | Zaman aralığı | Keçidlər |
|---|---|---|---|
| Xüsusi/milli temaya sahib səhifələr | Bütöv Azərbaycan Ocaqları | 1 Yanvar – 31 Dekabr 2019 | https://www.facebook.com/baoazerbaycan/ |
| | Azerbaijan-Turcomania | 1 Yanvar – 31 Dekabr 2019 | https://www.facebook.com/Turcomanica1410/ |
| | Difai Təşkilatı | 1 Yanvar – 31 Dekabr 2019 | https://www.facebook.com/DifaiTSK/ |
| | Milliyyətçi Gənclər Təşkilatı | 1 Yanvar – 31 Dekabr 2019 | https://www.facebook.com/MilliyyetciGenclerTeskilati/ |
| | Azərbaycan Milliyətçi Gəncləri | 1 Yanvar – 31 Dekabr 2019 | https://www.facebook.com/AzerbaycanMilliyetciBozqurdlari/ |
| | Türkün səsi 1/7 | 1 Yanvar – 31 Dekabr 2019 | https://www.facebook.com/turkunsesi.az/ |
| | Papaqlı Azərbaycan | 1 Yanvar – 31 Dekabr 2019 | https://www.facebook.com/Papaqli.Azerbaycan/ |
| | Bütöv Azərbaycan Mühafizəkarları Təşkilatı | 1 Yanvar – 31 Dekabr 2019 | https://bit.ly/2ONJYcs |